

İLTİMAS SƏMİMİ

*Azərbaycan Yazıçılar Birliyi üzvü*
*Prezident mükafatçısı*

## BİR ƏBƏDİ HƏYAT İDİ

Susqunluq gözlərinə
Yaraşmazdı,
Ürəyindən keçənləri
Baxışından oxuyardım.
Fikirlərin,
Duyğuların ağac-ağac
Boy atırdı,
Dəniz-dəniz çağlayırdı,
Bulaq-bulaq qaynayırdı.
Gözlərinə baxa-baxa
Bu dünyanı
Qarış-qarış dolanırdım.
Okeanlarda,
Dənizlərdə
Balıq-balıq üzüb
Keçən arzularım,
Göy üzündə ulduzlara
Sığal çəkən xəyallarım
Yer üzünə sığışmazdı.
Elə bil ki baxışların
Bir sehrli güzgü idi.
Gözlərində görürdüm mən
Okeanların,
Dənizlərin şaha qalxan dalğaları.
Yayı-qışı başı qarlı o dağları...
Əngin göylər,
O sayrışan ulduzlar da
Göz oxşayan bir aləm tək.
Qələmimə ilham verən,
Sözlərimə qanad taxan
Baxışların,
O saf eşqin bir əbədi həyat idi.

## DAĞ ÇƏKMƏSİN

Üşüyən xatirələrin
Bu yazın istisinə də isinmədi.
Təpədən dırnağa
Yağışlı payızsan,
Çovğunlu qışsan.
Ümidlərin,
Arzuların üzünü isladan
Bir damla
Göz yaşıdır.
Al ovcuna Yer kürəsini
Qutar insanları
Hicranlardan,
Ayrılıqlar sevənlərə dağ çəkməsin.

**10.12.2023.**

## QAN QOXUYUR

Daha o mavi sulara
Baxmaq istəmirəm.
Dəniz qırışlanıb
Elə bil,
Sığallansa
Dalğalar dayanar
Bir az.
Kəsilər suların səsi
Sahilə ağzını açan dalğalar,
Sanki bu yer üzünü
Udmaq istəyir.
Çəkilir,
Qabarır.
Çalxadıqca
Ürəklərə qorxu düşür.
Ölüm xofu,
Vaxtsız əcəl
Neçə-neçə canlar alır.
Şaha qalxan mavi dəniz
Qan qoxuyur.

**12.12.2023**

## GÜNAHSIZ QANLAR

Kimsə gözlərindən susur,
Ürəyi sükut içində
Donur dilində
"Allah" kəlməsi.
Haqqı deməyə
Cəsarət etmiyənləri
Allah sevməz.
Kimsə ayaqlarından susur,
Batır günahlar içində,
Düz yolda yeriməyə
Cürəti yox.
Dənizdə batan
İnsanlar kimi,
Əlini hara atsa boş qayıdar.
Kimsə əllərindən susur,
Tanrı dərgahına
Əlləri qalxmır.
Bilir suç içində,
Günah içində
Çırpılar üzünə etdiyi dua.
Kimsənin varlığı
Susqunlu kimi,
Onun qışqırığı sükutu pozmaz,
Onun hayqırtısı
Bir vızıltıdır.
Sözü ovundurmaz daş ürəkləri,
Axar yer üzündə günahsız qanlar.

**14.12.2023**

## YUXU ŞİRİN

Yuxu şirin,
Amma vaxta qənim kimi
İnsanı geriyə atır.
İnsan yatır,
Aylar ötür,
İllər ötür.
Bir də geri dönmür zaman,
Çox insanın səadəti
Yuxusuna qurban gedib.
Tez oyanıb,
Gec yatanlar,
Siz necə də bəxtəvərsiz.
Siz zamanın sınağından
Alnı açıq ötüb keçdiz.
Yuxusuna haram qatıb
Sənət üçün,
Millət üçün,
Dövlət üçün
Gecə-gündüz çalışanlar.
Öz vicdanın qarşısında
Üzü ağsız.
Tanrı sizdən razı qalar,
Tez oyanıb,
Gec yatanlar.

**16.12.2023**

## ARZULAR HƏLƏ

Qaçır gözümüzdən şirin yuxular,
Başımız yorulur fikir çəkməkdən.
Hələ qəlbimizdə sıxıntılar var,
Dilimiz qabarır dərd söyləməkdən.

Bir dirsək en yerə, isti günəşim,
İsidə bilməyir ümidlər bizi.
İnsanın ağlamaq deyil, vərdişi,
Fəqət dərd sıxıbdır ürəyimizi.

Qarlı qışımızı çevir bahara,
Üşüdüm, - deməsin bir insan belə.
Acı dərd-sərindən geyməsin qara,
Göyərir ot kimi arzular hələ.

**16.12.2023**

## GÖZLƏMƏK YAZILIB

Bilinmir,
Bu hava payız havasıdı,
Yoxsa qış.
Bir az küləkli,
Bir az yağışlı,
Bir az da qarlı...
Şəhər küçə-küçə
Adamla dolu,
Hərə bir yana,
Bir ünvana tələsir.
Üşüyür ayaq səsləri,
Ümidsiz baxışlar.
Kimi qapı gözləyir,
Kimi yol,
Kim isə axşamın düşməsini.
Qapılar bağlı,
Yollar qıfıllı,
Vaxt kiletli.
Ömür bir az küləyə,
Bir az yağışa,
Bir az da qara pay oldu.
Qismətimizə bir az qapı,
Bir az yol,
Bir az da axşamın düşməsini
Gözləmək yazılıb.

**16.12.2023.**

## ANLAYARSAN

Son ümidi də
Paltar kimi əyninə geyinib
Yoluna davam et.
Nə ürəyin yorulsun,
Nə ruhun sarsılsın.
Nə üstünə külək əssin,
Nə yoluna yağış yağsın.
Yaz havası
Sevinc havasıdır.
İçində yarpaqlanan arzular,
Ağac-ağac boy atar.
Xəyalların kölgəsində
Dincələsən.
Sənə sarı yüyürən vaxt
Yaddaşında toz basmış
Xatirələri artdıqca
Qüruba sarı adladığını anlayarsan.

**21.12.2023.**

## KEÇMİŞƏ BAX

Hələ bir az yağış istə,
Susuz torpaq cadar olub.
Nə can dözər, nə də ürək,
Dərd çəkməkdən gözlər dolub.

Bu torpağın bağı hanı?
Havasından gül ətri yox.
İnsanı ölümə çəkir,
Sevinci az, kədəri çox.

Ötməz burdan bir quş belə,
Ocaq-ocaq yanır torpaq.
Yaddaşlarda xatirələr,
Dönüb bir də keçmişə bax.

**21.12.2023**

## BİR AZ VAXT AYIR

Göz yaşı payızın yağışı deyil,
Göz yaşı bir qəlbin ağrılarıdır.
Ümidsiz bir ürək tablamaz, gülüm,
Ötüb gəncliyimiz ömür yarıdır.

Ümidlər bitdikcə, ömür də bitir,
Bir quru söz deyil, "sevgi" kəlməsi.
Dönüb dastanlara yaşadar bizi,
Min ildir kəsilmir Məcnunun səsi.

Bizdən söhbət açıb danışar hamı,
Şairin sevgisi adi olmayır.
Hər an səndən alır, o ilhamını,
Gəl, şirin vüsala bir az vaxt ayır.

**23.12.2023**